**UOT 1(091)**

# ƏHMƏD BƏY AĞAOĞLU "İRŞAD" (1905-1908) QƏZETİNDƏ MODERN MİLLİ DÜŞÜNCƏ TƏRZİNİN İSLAHATÇISI KİMİ

**Nicat Məmmədov**
Fəlsəfə üzrə fəlsəfə doktoru, dosent
AMEA Fəlsəfə və Sosiologiya İnstitutu
nicatmk@mail.ru
DOİ: 10.30546/sw.2022.2.39.97

**Xülasə.** Təqdim olunmuş məqalədə Əhməd bəy Ağaoğlunun “İrşad” qəzetini təsis etdikdən sonra onun bu mətbuat orqanında inqilabi şüur, milli-azadlıq ideyaları və milli oyanış prosesinin güclənməsi sahəsində özünəməxsus dünyagörüşü araşdırılır. Həmçinin milli mənlik şüurunun formalaşmasında onun millətin özünüdərk, özünütəşkil və özünütəsdiqində əvəzsiz xidmətləri tədqiq olunur.

**Məqsəd:** Əhməd bəy Ağaoğlunun "İrşad" qəzetində dərc olunmuş yazılarında təbliğ etdiyi ideyaların dövrünün yeni fikirli ziyalılarının dünyagörüşündən fərqli və oxşar cəhətlərini araşdırmaq.

**Metodologiya:** Müqayisəli - sistemli yanaşma, tarixilik metodu.

**Elmi yenilik:** Ə.Ağaoğlunun "İrşad" qəzetində dərc olunmuş yazılarının dövrünün ictimai-siyasi və fəlsəfi fikrinə özünəməxsus surətdə yeni, orijinal fikir və mülahizələr kimi təqdimatının tədqiqi.

**Acar sözlər:** Əhməd bəy Ağaoğlu, ictimai-siyasi, maarifçi-realist, milli-mənəvi, özünüdərk, demokratik.

## Giriş / *Introduction*

Azərbaycan ictimai-siyasi və fəlsəfi fikri tarixində iyirminci əsrin ilk onilliyi xüsusi mərhələ təşkil edir. “Kəşkül” ün bağlanması (1891) ilə uzun müddət mətbuat orqanlarından məhrum olan Azərbaycan türklərinin dünyagörüşünü, səsini yeni əsrin başlanğıcında əvvəlcə “Şərqi-Rus” (1903-1905), ardınca xalq hərəkatının təsiri altında aparılan məcburi islahatların nəticəsi kimi həyata vəsiqə qazanan “İrşad” (1905-1908), “Həyat” (1905-1906), “Molla Nəsrəddin” (1906-1931) və b. mətbuat orqanları yayırdılar. Mətbuat orqanları, həmçinin əsası M.F.Axundzadə tərəfindən qoyulmuş modern milli təfəkkürün və ədəbiyyatın tribunasına çevrilmişdi. C.Məmmədquluzadə, Ü.Hacıbəyli, Ə.Ağaoğlu, Ə.Hüseynzadə, A.Səhhət, H.Cavid, M.Ə.Sabir, N.Nərimanov, Ö.F.Nemanzadə, Ə.Haqverdiyev, S.S.Axundov və b. yazıçılarımızın əsərləri öncə məhz qəzet və jurnallarda işıq üzü görürdü. Modern milli düşüncə tərzinin inkişaf istiqamətləri və meyillərinin müəyyənləşməsində, dünya ədəbiyyatı inciləri ilə Azərbaycan oxucusunun ilk tanışlığında mətbuat orqanları müstəsna rol oynayırdı. Odur ki, Azərbaycanın siyasi müstəqilliyinin bərpasından sonra yaranan yeni ictimai-siyasi şəraitdə problemə yenidən yanaşma zərurəti vardır.

XX əsr Azərbaycan ictimai-siyasi və fəlsəfi fikrində, mətbuat tarixində müstəsna yeri və xidmətləri olan “İrşad” qəzetinin xalqımızın ötən əsrdə bilavasitə ictimai-siyasi, sosial-iqtisadi-mədəni mühitin dərindən öyrənilməsində mühüm əhəmiyyət kəsb etdiyi nəzərə alınmaqla geniş tədqiqata cəlb olunması böyük aktuallıq kəsb edir. Çünki bu qəzetin səhifələrində mütəmadi yer verilən nəzm və nəsr nümunələri, bədii publisistik yazılar yalnız bir mətbuat orqanını araşdırmaq üçün yox, bütövlükdə XX əsrin əvvəllərində formalaşmaqda olan Azərbaycan fəlsəfi fikrinin öyrənilməsi yönündə çox əhəmiyyətlidir.

## Əsas hissə / *Main Part*

XX əsrin *ilk illərindəki ictimai-siyasi* şərait müəyyən ideoloji cərəyanların, siyasi partiyaların meydana çıxmasma səbəb olurdu.

Tarixin belə keşməkeşli vaxtlarında ictimai, siyasi, iqtisadi həyatda olduğu kimi mədəni mühitdə də canlanma müşahidə olunur, öz dövrü ilə bərabər addımlayan ədəbiyyatın və incəsənətin əksər sahələrində yeni yollar axtarılırdı.

XX əsrin ilk onilliyində Azərbaycan ictimai-siyasi, fəlsəfi, ədəbi-bədii, nəzəri-estetik düşüncə tərzi öz fərqli çalarları ilə diqqət çəkir. Lakin ictimai, siyasi, iqtisadi sahələrdə olduğu kimi, mədəni

həyatda yaranan canlanmanı da yalnız XX əsrə aid etmək doğru olmazdı. XIX əsr Azərbaycan tarixində mütərəqqi yeniliklərə meyllərin meydana çıxması və genişlənməsi ilə izlər qoymuşdu. Bu, Azərbaycanda yaranan bir çox ədəbi-bədii əsərlərdə öz əksini tapmaqda idi.

“İrşad”çı müəlliflər klassik-elmi irsin rolunu yüksək dəyərləndirirdilər. Klassik irsin öyrənilməsi, ona münasibət və istinad kimi mühüm məsələlərə böyük həssaslıqla yanaşan bu görkəmli qələm sahibləri yalnız Azərbaycan klassiklərinin yaradıcılığına deyil, dünya mədəniyyətinə, qədim elmlərə, xüsusən də fəlsəfəyə öz baxışları, mülahizələri ilə seçilirdilər. Onlar klassik Şərq və Qərb dünyagörüşünü, mədəniyyətini, ədəbiyyatını vəhdətdə götürür, ümumilikdə dünya sivilizasiyasının nailiyyətlərinə ümumibəşəri mənəvi sərvət kimi baxırdılar. Milli-mədəni tərəqqiyə də irşadçıların əksəriyyəti məhz bu nöqteyi-nəzərdən yanaşırdı.

“İrşad”çı müəlliflər Qərbin inqilabi demokratik ruhlu, maarifçi ədiblərinin həyat və yaradıcılığını təqdir edir, yeri gəldikcə, yazılarında onlardan nümunələr verirdilər. Azərbaycanın istiqlaliyyətini düşünən bu qələm əhli azadlıqsevər, mübariz xalqların mücadilə tarixlərini, ədəbiyyat nümunələrini yüksək tuturdular. “İrşad”ın rəhbəri (“İrşad”ın ilk sayından başlayaraq, 1906-cı ilə qədər ümumilikdə 116 sayı Ə.Ağaoğlunun redaktorluğu ilə dərc edilmişdi) xüsusilə Avropanın tarixində ayrıca yeri olan, “Azadlıq, Bərabərlik, Qardaşlıq” şüarını başları üzərinə qaldırmış fransız romantiklərinin yaradıcılığına tez-tez istinad edir, Fransada bərqərar olmuş inqilabi ideyaları, bu istiqamətdə göstərilmiş əzmkarlıqları öz xalqı üçün ömək sayırdı.

“İrşad”ın nəşr olunduğu dövrdə elm, təhsil, mədəniyyət, mətbuat, səhiyyə və digər sahələrdə Qərbin Şərqdən öndə olması göz önündə idi. Bu reallıq qələm, söz adamlarının əksəriyyətinin yazılarında müxtəlif üslubda və tərzdə ifadə olunurdu. Lakin “İrşad”çı müəlliflər yalnız öz dövrlərinin mənzərəsindən çıxış etməyin tərəfdarı deyildilər. Onlar dünya sivilizasiyasının keçib gəldiyi yola bütövlükdə və hərtərəfli nəzər salır, tərəqqinin Qərbdən başlamadığını tarixi faktlarla əsaslandırırdılar. “İrşad”çı müəlliflər XX əsrin əvvəllərində elmin, texnikanın inkişafı baxımından Şərqin Qərbə güzəştə getməsinin səbəbini təhlil edərkən çox dərin mətləblər ortaya qoyurdular, burada birinci səbəb kimi əhalinin cahilliyini göstərirdilər. Lakin xalqı bu hala gətirən vəziyyətin özü də sonradan, tədricən yaranmışdı və araşdırdıqca kökünün daha dərinlərə getdiyi aşkara çıxırdı. Ə.Ağaoğlu yazırdı: “Bizim cəmaətin əksəri cahildir; hüquq nədir, ixtiyarat nədir düşünmüyor; cəhalətlə bərabər cəmaətimizin əxlaqı pozqundur.

Bu pozqunluqa, bu cəhalətə səbəb məşriq vilayətlərində qədimülləyamdan adət olan üsuli-hökumət və idarədir.

Məşriqdə üsuli-hökumət fəqət qorxudur; hökumət və hakimlər ancaq əhalini qorxu ilə idarə etmişlər; qorxu məşriqdə ruhi-həyatdır; əgər dürüst diqqət olunsa, aşkar olunar ki, biz məşriqlilərin cümlə məişətimiz, cümlə asari-həyatımız qorxu üzrə binalanmışdır” [1, s.87]. Ə.Ağaoğlu yazırdı ki, bizdə uşağını sakitləşdirmək üçün ana cürbəcür xəyalatla - süpürgəsaqqallar, cinlər, hal anaları ilə beşikdən bağırqan edir. Bir az böyüdükdə isə o, yumruq, sillə, ağac və başqa cəzalar görür, ata-anasına məhəbbət əvəzinə qorxu, vahimə hiss edir. Mollaxanaya təhsil almaq üçün gedir, orada da molla lütf, şəfqət, mehribanlıq yerinə, çubuq, falaqqa, dəyənəklə “tərbiyə” edir. Yaşı artdıqca hakimlərdən, hökumətdən ədalət və insaf əvəzinə, güc, zor, zülm, cəfa, rüşvət görür. Bütün bunlara görə, Ə.Ağaoğlu düşiinürdü ki, Məşriq, yəni Şərq insanı əzir, sıxır, şanmı, ehtiramını alır. Hara baxsa, zor və güc görənlər nəinki bir- birlərinə, hətta öz-özlərinə inanmırlar.

Tədqiqatçı Ü.Hüseynova yazır: “Ə.Ağaoğlu Fransanın tarixinə, ictimai həyat təcrübəsinə, xüsusən də ədəbi-mədəni tərəqqisinə özünün, yəni Azərbaycanın müasir ümummilli arzuları və mədəni-mənəvi ehtiyacları mövqeyindən yanaşırdı. Bu mənada, tədricən Azərbaycanın siyasi mənafelərini düşünməsi də ciddi maraq doğurur. O, ümumən ədəbiyyata, habelə Fransız ədəbi-mədəni aləminə münasibət bildirməklə xalqm ictimai yaşayışı, siyasi azadlıq arzularını diqqət mərkəzinə çəkirdi. 1789, 1793 və 1848-ci illər Fransa inqilabları dövrünü və bu dövrə aid ədəbiyyat nümunələrini Ə.Ağaoğlu ona görə xüsusi təhlil mərkəzinə çəkirdi ki, ədəbiyyat və ictimai həyat əlaqələrini ətraflı şərh edə bilsin” [1,s.96]. Ü.Hüseynovanm qeyd etdiyi kimi, ictimai həyatdan, cəmiyyətin ehtiyacından doğan ədəbiyyatdan danışarkən Ə.Ağaoğlu fransızların fərd və şəxsiyyət azadlığı, hüquq bərabərliyi uğrunda mübarizə bəyənnamələrini yüksək qiymətləndirirdi. Şübhəsiz, klassik irsə münasibət, Qərbin yüksəlişinə, Avropanın demokratik ideyalarına rəğbət “İrşad”çı müəlliflərin çoxunun yaradıcılığında

ifadəsini tapmışdı. “Füyuzat” bağlandıqdan sonra “İrşad”a üz tutan Ə.Hüseynzadə, Ə.Kamal, A.Cövdət və başqaları da Şərq tarixinin möhtəşəmliyindən, mədəni zənginliyindən söz açan bədii publisistik və digər yazılarını mütəmadi bu qəzetdə təqdim edirdilər. Həmin yazılarda da müəlliflər Şərqlə Qərbi dünyanın iki fərqli tərəfləri kimi göstərir, üz-üzə qoymurdular.

İrşadçılar XX əsrin əvvəllərində Avropanın çox tərəqqi etdiyini Qərb mütəfəkkirlərinin əsər və mülahizələrindən nümunələr gətirməklə şərh edir, həmçinin xristian dünyası və İslam aləmində azadlıq anlayışına, dövlət və cəmiyyət münasibətlərinə aydınlıq gətirirdilər. Bu məsələlərin hər birində yenə Ə.Ağaoğlunu qələm yoldaşlarının önündə görürük. Belə ki, “XX əsrin əvvəllərində Avropaya münasibət meyarlarını müəyyənləşdirən Ə.Ağaoğlu “İrşad”da dövlətçilik tarixi və nəzəriyyəsi haqqında danışarkən həmin mövqedən çıxış edir, Azərbaycanda demokratik cümhuriyyət ideyasını ortaya atırdı” [2, s.9].

Ə.Ağaoğlunun Jan Jak Russonun, Volterin, Didronun və başqa Fransız klassiklərinin, eləcə də yeni formalaşan azad ruhlu ədəbiyyat adamlarının yaradıcılıqlarının təhlilə cəlb etməsinin çox mühüm səbəbləri vardı. O, real həyat hadisələrinin, ictimai problemlərin və mənəvi duyğuların təcəssümündən yaranan ədəbiyyatı bütövlükdə bəşəriyyətin sərvəti sayırdı. Ə.Ağaoğlu zülmə, əsarətə, istibdada qarşı çıxan ədibləri əsl qəhrəman kimi təqdim edirdi.

Əsərlərində Fransanın azadlıq mübarizəsindən, dövlətçilik təcrübəsindən nümunələr gətirən Ə.Ağaoğlu yazırdı: “Vəkillər özlərini daimi surətdə məclis hesab edib öz aralarından hökumət təşkil etdilər və əvvəlimci şurada çox hiddətli və şiddətli müzakirələrdən sonra qət etdilər ki, Firəngistanın cəmi ənvər və qaidələrini tazə bir surətdə tərtib və tənzim etsinlər: odur ki, əvvəlinci vükalə məclisində rusca (uçreditelniye sobranie), yəni tərtibverici şura adı qoydular. Şurada (Robespyer), (Dantin) və (Marat) adlı üç şəxsin əla dərəcədə nüfuz və təsirləri var idi: onların hürriyyətpərəst, odlu, atəşli nitqləri cümlə vükəlanı və Firəngistanı qəribə bir təxdiş və həyəcanə gətirdi. ...şürayi-vükəla Robespyerin təklifinə görə məclis günlərinin birində qeyd etdi ki, insana biltəbii müxtəs olan hüquq və ixtiyarat barəsində müzakirə edib bu hüquq və ixtiyaratı həm Firəngistana və həm də külli-aləmə elan etsinlər. ...şu hüquq və ixtiyarat ibarətdir: 1)Sərbəsti-milliyyədən, 2)Hürriyyəti-kəlamdan, 3)Hürriyyəti-qələmdən, 4)Hürriyyəti-vicdaniyyətdən və diniyyədən, 5)Hürriyyəti-şirkətdən və icmaədən” [1, s.2].

Belə siyasi maarifçilik mahiyyəti daşıyan məqalələri, təhlilləri ilə Ə.Ağaoğlu və onun “İrşad”ı ilə birlikdə irəliləyən irşadçılar Azərbaycanın ictimai-siyasi və fəlsəfi fikrini, ədəbi-mədəni hərəkatını Qərbə istiqamətləndiməyə səy göstərirdilər. İrşadçılar Şərq və Qərb mədəniyyətini ümumi vəhdətdə götürməklə yanaşı, inteqrasiyanı vacib hesab edirdilər.

Milli ictimai-siyasi və ədəbi-ictimai fikirdə Qərbə meylin tarixi XIX əsrin ortalarından başlansa da, XX əsrin başlanğıcında daha qabarıq şəkildə nəzərə çarpırdı. Azərbaycanda XX əsrin əvvəllərindəki qərbçilik meylləri XIX əsrin maarifçilik ideyaları əsasında yarandığını [3, s.16]qeyd edən araşdırıcı Təranə Abdullayeva yazır: “Humanist ideyalarla zəngin olan XIX əsr rus klassik ədəbiyyatı Azərbaycan ziyalılarının mədəni inkişafında, bədii yaradıcılıq təfəkkürünün dövrün müasirlik elementləri ilə zənginləşməsində mühüm rol oynayırdı. Bizim yaradıcı ziyalılar, yazıçı və sənətkarlar ilk növbədə rus dili, daha sonralar isə Qərb dilləri vasitəsilə Avropa elm və mədəniyyətinin ayrı-ayrı nümunələrinə, o dövrün müasir nailiyyətlərinə dərindən bələd olur və yeni inkişaf səviyyəsinə qovuşurdular. Tədricən ümumdünya sivilizasiyasma inteqrasiya olmaq üçün imkan və şərait yaranırdı” [2, s.17].

Avropa və avropalıların həyatı, mühiti Əhməd bəyin ona görə müsbət mənada diqqətini çəkirdi ki, orada elm, təhsil inkişafda idi, insanlar daha fəal və qətiyyətlə öz hüquqları uğrunda mübarizə apara bilirdilər. O, bir çox məqalələrində, həmçinin bədii publisistik əsərində Fransa tarixində, fransız cəmiyyətində böyük dəyişikliklərə səbəb olmuş inqilablardan xüsusi maraq və dərin rəğbətlə söz açmışdı. Bu yazılar bir sıra məqamı ilə diqqəti cəlb edir. Fransanın inqilabi mübarizələrlə dolu tarixi Əhməd bəyi gənclik illərindən heyran etmiş, orada tələbəlik illərində fransız ədəbiyyatı da daxil olmaqla, ümumilikdə Avropa xalqlarının klassik irsi, müasir ədəbi prosesləri ilə çox böyük diqqət və səylə tanış olmuşdu. Ə.Ağaoğlu o vaxtdan həmin cəmiyyətdə böyük əks-səda doğurmuş ədəbi-bədii əsərləri, onların müəlliflərinin həyat və yaradıcılığını öyrənməklə yanaşı, müasiri olduğu dövrdə baş verən, elmi, ədəbi-mədəni mühitə təsir göstərən yenilikləri diqqətlə müşahidə etmişdi. Azərbaycana döndükdən sonra, xüsusilə də milli mətbuat orqanlarında çalışdığı vaxtlarda öz vətənində onların

tanınmasma və təbliğinə səy göstərdi. “İrşad”a qədərki və ondan sonrakı publisistik fəaliyyətində, həmçinin bu qəzetdəki ədəbi-bədii yazılarında o, qeyd etdiyimiz istiqamətdə təqdirəlayiq işlər gördü.

Ə.Ağaoğlu İ.Höte, J.J.Russo və digər klassiklərin yalnız elmi, ədəbi-bədii yaradıcılığını təhlil etməklə kifayətlənməmiş, həm də onlarm öz mühitinə, müasirlərinə, eləcə də mənsub olduqları xalqlarla yanaşı, digər xalqların tarixinə böyük təsir göstərən fikirlərini xüsusi diqqətə çatdırmışdı.

Ümumilikdə Ə.Ağaoğlunun “İrşad”ında Şərq əxlaqi-mənəvi dəyərlərinin qədimliyi, İslam elmi-fəlsəfi görüşləri, humanizmi, insan azadlığı yüksək dəyərləndirilirdi. İrşadçıların əksəriyyəti üçün Qərb tərəqqisi həmin cəmiyyətdəki maarifpərvərlik və azadfikirliliklə cəlbedici və arzuolunan idi. Onların yazılarında Qərbin təqdiri, Şərqin tənqidi qabarıq şəkildə əks olunurdu. Lakin bu duyğularda qətiyyən antişərq mövqeyi, təslimçilik ovqatı, eləcə də Qərbi ideallaşdırmaq cəhdləri duyulmur. “İrşad”ın yazarları öz dövrlərindən çıxış edərək Qərbin inkişafından nümunə götürməyi, elmi-texniki nailiyyətlərindən bəhrələnməyi gərəkli sayırdılar. Ə.Ağaoğlu yazırdı ki, Monteskye “Ruhəlqəvanin” kitabında “...bu fikri cari edir ki, dünyadə üç cür hökumət olur; birincisi, istibdaddır, belə hökumətdə külli ixtiyar bir şəxsin əlində olur; ikincisi məşrutiyyədir, hakimlər müstəbid olsalar da, qanunlar hazırlayırlar, özləri də bu qanuna əməl edirlər; üçüncüsü, cümhuriyyət hökumətidir, belə hakimiyyətdə külli-ixtiyar xalqın əlində olur” [4, s.2].

Ş.Vəliyevin fikrincə: “Əhməd bəyin milli və insani oyanış təlimlərində Şiraz və İsfahan Roma və Yunanıstanla üz-üzə gəlirdi. Yenə də həmin sistem üçün ən münbit zəmini Əhməd bəy xristianlıqdan daha çox islam simasında görürdü. Ancaq öz təbiriycə desək, "əyrü-üyrü yollardan sərf-nəzər edir, Adam Smitlə Nizamüddövlənin, Spenserlə Nəsrəddin Tusinin görüşlərini bir-birinə qarışdırmamağı, yolun ən konkretini, mükəmməlini və ahəngdarını seçməyə çağırırdı” [5, s.5].

İslam dininə və İslam mədəniyyətinə dərindən bələd olan, yazılarında yeri gəldikcə, bu böyük dəyərlərin yalnız müsəlmanlar üçün deyil, ümumilikdə bəşəriyyətin müqəddəratı üçün müsbət tərəflərini diqqətə çatdıran Ə.Ağaoğlu bildirirdi: “...peyğəmbərimiz Məhəmməd əleyhüssəlam insanı insaniyyət dərəcəsinə qalxızmaqə qədəm qoydu; insanın dərəcə və qədərini mələkdən daha uca dutub məlaikəni insanə təzim etdirdi.

Və bu büsatı məşriqdə ələldəvam möhkəmləndirmək üçün əvvəlimci dəfə olaraq üsuli-hökuməti dəgişdirdi; cövr və zülm təntənə və həşəmət əvəzinə mizan ədəl və insaf qoydu” [4, s.2].

Ə.Ağaoğlu yazılarında yeri düşdükcə, İslam ölkələrinin şanlı, şövkətli zamanlarını xatırlayaraq yazırdı: “Təəccüb şurasıdır ki, İslamın bu qədər yetişdirdigi üləma, ürəfa, həkim və danişməndlər arasındə birisi yoxdur ki, üsuli-hökumət və qəvaid idarə barəsində layiq etina olan ciddi bir kitabçə və yainki risalə yazmış ola” [4, s.2]. O, mütiliyi təbliğ edən, monarxist idarə üsulunu tərifləyən, padşahları Yer üzündə Allahın kölgəsi sayan təfəkkürün müdafiəçilərini tənqid atəşinə tuturdu: “Tariximizdə böylə bu məsələlərə işarə də yoxdur; cümləsi filan padşahın və ya filan əmirin etdikləri dəvaların, səfərlərin və övlad və əcdadların təriflərindən ibarətdir.

Cəmaət isə bilmərrə yaddan çıxır: əgər bir kəs istiyə ki, bizim tarixlərimizdən bir əsrin cəmaəti barəsində ittilaat hasil edə, mümkün olamaz.

Hər əsr ibarətdir ancaq onun padşah və əmirlərindən. Lakin bu əsrin cəmaəti nə cür güzəran edirdilər, nə halət və övzadə idilər, ticarətləri, ziraətləri, məhkəmeyi-ədliyələri, verdigləri vergilərin qədəri, qaidə əxzi, məkatib və mədarisləri, üləma, şüara, ürəfaları barəsində əsla bir söz böylə dillənmiyor. Guya heç cəmaət yox imiş və külli dünya ibarət imiş padşah və əmirlərdən” [4, s.2]. Belə olduqda camaatın həyatının, güzəranının, səadətinin, müqəddəratının da padşahların qabiliyyəti, insafı, mürüvvəti ümidinə qaldığmı qeyd edən Ə.Ağaoğlu öz dövrünün hesabı ilə iki yüz il əvvələ nəzər salır, o zaman Avropa əhalisinin İran və Çindən daha istibdadi- hökumətin əlində əsir olduqları, ruhanilərin Avropada xalqın cəhalətindən faydalandıqları, kralların guya Yer üzünə Allah tərəfmdən təyin olunması fikrini ortaya atdıqları, əsilzadələrin vəziyyətdən öz xeyirlərinə istifadə etdikləri vaxtlarda əsl yazıçıların millətinin haqq səsinə çevrildiklərini bildirirdi. O, ilk dəfə Fransada cürət və hümmət sahibi yazıçıların meydana çıxdığını, hökumət barəsində müxtəlif kitablar, risalələr yazıb cəmaatın bəsirətini açmağa başladıqlarını xatırladır, həmin kitablardan nümunələr gətirirdi: “O cümlədən Monteskyö adlanan bir şəxs “Ruhəlqəvanin” Esprit des Lois admlı bir kitab, “İran məktubatı” Persanes Lettres adınlı bir qeyr kitab və “Rum səltənətinin əzəmət və məzəlləti” Roman La grandeur et la decadence de l’empe admlı üçüncü bir kitab nəşr etdi” [4, s.2].

Ə.Ağaoğlu hər üç kitabda hökumət üsulu, dövlət quruluşları haqqında bəyan edilmiş fikirləri şərh edirdi. Daha sonra o, yazırdı: “Monteskyödən sonra məşhur “Volter” zühur etdi; bu yazıçının yazdığı kitablar o qədərdir ki, tədad ilə qurtarmaz; şiddətli və asarli bir dil ilə bu atəşli yazıçı ruhanilərin, nücəbaların və ələlxüsus istibdadi və keyf mayişə hökumətin eyib və qüsuratını ənzar xəlqdə nümayan etməgə şüru etdi; Volteri təqib və əziyyət etdilər; Volter yorulmadı; yazısılə də dəvam etdi; Volteri həbsə saldılar; genə mütənbihə olamayıb yazdı; Volteri vilayətdən xaric etdilər; qürbət ixtiyar edib başladı Firəngistanı risalələr ilə doldurmağa; krallar, padşahlar lərzəyə düşdülər; naəlac Volteri yanlarınə dəvət edib dostluq binasmı qoyub onun rəy və tədbiri ilə dövlət işlərini tənzim və təshih etməgə şüru etdilər.

Lakin bunların cümləsindən artıq maəssər və nüfuzlu bu yazıçıların müasiri “Jan Jaq Russo” deyilən bir yazıçı idi.

Bu həkimin dediginə görə, insan bilatəbii azad və hürrdür; bu azadlıq və hürrlük insanə təbiət və Allah verən bir xüsusiyyətdir; lakin bununla bərabər insan genə bilatəbii cəmiyyətə; ictimaiə maildir” [4, s.2].

Ə.Ağaoğlu Jan Jak Russonun cəmiyyət, insan azadlığı və onun hüdudları haqqında fikirlərinə diqqəti çəkirdi. Jan Jak Russo kimilərin insanların içindəki azadlıq duyğularını oyatmaları hakim təbəqələrə xoş təsir edə bilməzdi. Çünki onlar əhalinin gözlərini açır, hakimiyyətin aşıladığı mütiliyin, ətalətin və ədalətsiz bölgünün fərqinə varmalarına yardım edirdilər. Hökumət idarə üsulunu tənqid edən belə yazıçıları təqib etməyə başlamışdı. Lakin nə qədər çox əziyyət və zəhmət verilmişdisə, o qədər onların yazıları, fikirləri, xəyalları xalq arasmda geniş yayılmışdı. Ə.Ağaoğlu yazırdı: “Bir az müddətdə külli Firəngistanın hökumət barəsində əqidə və fikirləri dəgişildi. Monteskyölərin, Volterlərin və ələlxüsus Jan Jaq Russoların yazıları hər firəngin adəti mütaliə kitabları oldu. Yavaş-yavaş cəmaət həyacanə gəldilər. Şimdiyədək fasid əqidələr və məzmum qaidələr sayəsində səbr etdigi zülm və cəfalara daha artıq taqəti qalmadı. Xəlqin bəsirəti açıldı. Hökümət nə olsun, nə olmasım düşündü. Öz təbii və xudadadı, hüquq və ixtiyaratını anlayıb da hüsulə gətirməgə şuri etdi. Orada-burada hakimlərə, qazilərə tüğyanlar olundu. Təəccüb şurasıdır ki, bu həyəcan, bu hərəkət tənha qəra cəmaəti, əhli-kəsəbə və sənətkarları degil, cəmaətin cümlə təbəqəni alışdırdı” [4, s.2].

Ə.Ağaoğlu Parisin günü-gündən həyəcanlanıb özünü, Fransanı, külli aləmi zülm və istibdaddan xilas etmək fikrinə düşdüyünü, camaatın dəstə-dəstə olub, əl-ələ verib hürriyyətpərvər nəğmələr oxuduğunu yazırdı: “Bu nəğmələrdən ən şöhrət edəni “Marselyoz” adınlu nəğmədir ki, əlan Firəngistanın milli nəğməsi olubdur.

Bu nəğməni Marsel şəhrində bir şair sürud edib Marseil əhalisi onu oxuya- oxuya payi-piyadə Parisə kibi gəlmişdilər.

Nəğmənin məzmunu budur: “Cəm olun, qardaşlar, dəstə bağlıyun. Zülm və istibdadın qarşısınə hürriyyət və insaniyyət qəhrəmanları kibi gedib, qanlar töküb əziz Vətənimizi, insaniyyəti cəbbar və zalımlardan xilas edin!”. İştə bu qunə nəğmələr dünyanın hər yerində oxunursa, şol vəqt əvvəlimci dəfə olaraq insan qulağına dəgüb insanların qəlblərini, ruhlarını eşidilməmiş, gorülməmiş sözlərlə, ahənglərlə, fikirlərlə bir qəribə halətə salıyordular” [4, s.2].

Ə.Ağaoğlu Qərbə heyranlıq duysa da, onu ideallaşdırmırdı. O, din xadiminin əmrinə uyaraq öz alimini tonqallarda yandıran Qərbi yox, böyük fransız inqilabını meydana çıxaran və sonrakı yeni Qərbi təqdir və tərənnüm edirdi. Biz bilərəkdən təkcə Fransanın adını çəkmirik. Çünki müəllifm də diqqətə çatdırdığı kimi, böyük Fransa inqilabı yalnız bu ölkənin tarixində və fransız xalqının həyatında yeni bir başlanğıc yaratmamış, ümumilikdə Avropanı silkələyib oyatmışdı.

Ə.Ağaoğlunun klassik sənət nəzəriyyələri, dərin fikirləri yalnız irşadçılar arasında deyil, bütün qələmdaşları arasında xüsusi diqqət, sonsuz maraq doğurmuşdu.

Onun müxtəlif şəxsiyyətlərdən, sənətkaralardan, eləcə də bir çox ədəbi-bədii abidələrdən bəhs edən araşdırmalarında, təhlil və tənqidlərində müasir ictimai-siyasi tələblərə mühüm yer verilirdi. Yalnız Fransa həyatına, onun inqilablarla zəngin tarixinə deyil, ümumilikdə Qərb, Avropa ədəbiyyatına, mədəniyyətinə Ə.Ağaoğlunun erkən yaşlarından başlayan marağı yaradıcılığı boyu davam etmişdi. O, sistemli şəkildə bu ölkələrin ictimai-siyasi həyatını öz publisistik məqlalərində təhlil etmişdi. Eyni zamanda, yazdığı bir sıra icmallar, dostları ilə məktublaşmaları bu mənada diqqətəlayiqdir.

Ə.Ağaoğu və digər "İrşad"çı müəlliflər öz əsərlərində müsəlman həmrəyliyinin vacibliyinə daim diqqət çəkirdilər. O dövrdə əksər İslam ölkələrinin, bu dinə riayət edənlərin Avropa və avropalılarla müqayisədə geridə qalmasından şikayətçi olan irşadçılar yazılarında tez-tez keçmişi xatırlayırdılar. Onlar tarixi faktlarla qərblilərə sübut edir, şərqlilərin isə yadlarına salırdılar ki, vəziyyət əvvəldən belə olmamışdı. Ə.Ağaoğlu bu barədə yazırdı: “Elmcə dirilik, həyat məsələsi ən qarışıq, ən müşkül məsələlərdən birisidir. Keçmişdə üləmayi-islamiyyədən bu məsələyə layiqincə diqqət və etina edən, fəqət iki alim olub, birisi İbn Xəldun öz tarixinin müqəddiməsində, ikincisi - Nasir Tusi öz “Əxlaqi-Nasiriyyə”sində, lakin bu alimlər öz əsrlərinin səramədi olublarsa da, əsrin özünün fənn və elmcə təhqiqat və tədqiqatca qasir olduğundan bu alimlər, misal, həyatiyyəni; yəni, hər bir fərdin, hər bir tayifənin, millətin tərəqqi və təalisinin təzəllül və tədənnisinin əsbab və qəvanini mükəmməl bir surətdə bəyan etməgə nail olmamışlar, əsrlər, qərinələr keçdigdən sonra qərb - yəni Yevropa üləması bu - işkalı həll etmişlər. Bunlar İslam üləmasının zəhmətlərindən bilaistifadə öz təhqiqat və tədqiqatları, öz təfəkkürat və təəqqüllatları sayəsində qəvainin həyatiyyəni mükəmməl bir surətdə təmin və bəyan etmişlər [6, s.3]. Ümumiyyətlə, belə əhəmiyyətli mövzulara irşadçılar müntəzəm müraciət edir, bəzən həmin məsələlərə dair silsilə yazılar qələmə alırdılar.

“İranda reforma, yəni tənzimat” adlı yazısında Ə.Ağaoğlu əhalisinin ən böyük, ən ali təmənnası qanun-qayda üzrə bir padşaha qulluq, itaət etmək olan, ancaq yüzlərcə vilayətlərə dağılan, adlarını hakim qoyub, əslində, padşahın, millətin hüquq və ixtiyaratını qəsb, ölkəni viran edən xainlərdən, cəlladlardan xilas olmaq istəyən İranın pərişan halından bəhs edərkən də onun tarixinə məşhur “Şahnamə”nin təsvirləri ilə nəzər salırdı.

Müəllif İranın keçmişdə nə dərəcədə mədəniyyətli, iranlıların nə qədər şanlı, əzəmətli olduqlarının sübutu üçün Ərdişir Babəkanm vəziri Tənsərin Gilan hakiminə yazaraq onu Ərdişir Babəkanə itaətə dəvət etdiyi və Londonda Britic muzeyinin kitabxanasında saxlanan nüsxəni sübut gətirirdi.

Tarixə müraciət edən Ə.Ağaoğlu diqqətə çatdırırdı ki, təngə gəlmiş camaat Gaveyi Ahəngərlərin hümmət və qeyrətləri ilə qalxıb Sasani hökmdarlığımn banisi Ərdişir Babəkanı taxta əyləşdirdilər. O, bu tarixin sonrakı dönəmi haqqında belə məlumat verirdi: “İştə iranilər iki min il bundan əqdəm bu dərəcədə öz heysiyyat milliyələrini düşünüb də Gaveyi Ahəngərlər, Tənsərlər kibi bəziləri canlarılə, bəziləri qələmləri ilə və dillərilə onu mühafizət etməgə çalışıyordular.

Bu çalışmanın sayəsindədir ki, İran üç yüz illik xərabəlikdən sonra Sasani kibi müəzzəm bir silsiləni İranə gətirib dünyanın yarısınə sahib olub Rum kimi möhtəşəm və sütunlu bir rəqibi haldan saldı” [7, s.2].

Müxtəlif məzmunlu yazılarında irşadçılar dünya ədəbiyyatının nümayəndələrinə, yaxud onların qəhrəmanlarına, yeri gəldikcə, istinad edir, hansısa hadisələrlə bağlı onları yada salırdılar. Ə.Ağaoğlu “Tülu edən ay parçası” adlı silsilə məqaləsində yazırdı: “Əgər mənə böylə isə dünyada bir müsəlman, bir türk tapılmaz ki, böylə xəyal ilə uğraşsın! Əgər tapılsa böylə divanədir. Çünki müsəlmanların və türklərin şimdiki halında böylə fikirlərə alışmaq (Don Kixot) kibi yel dəgirmanilə vuruşmaq kibidir” [8, s.3].

"İrşad"çı müəlliflər klassik elmi-mədəni və ədəbi-bədii dəyərlərin müxtəlif xalqlar tərəfindən mənimsənilməsini, təkmilləşdirilərək inkişaf etdirilməsini təbii hesab edirdilər.

Araşdırmalarımızdan belə qənaət gəlirik ki, “İrşad”ın böyük fəlsəfi mənaya malik ədəbi-bədii materialları XX əsr Azərbaycanının milli mübarizə, milli mücadilə, milli özünüdərk əhval-ruhiyyəsinin təbliği və tərənnümü ilə diqqəti çəkir.

Qəzetin dərc olunmuş materialları ilə tanışlıq belə deməyə əsas verir ki, XX əsrin əvvəllərində Azərbaycan və Avropa ictimai-siyasi şüurunun, ədəbiyyatının klassik ənənələri, çağdaş inkişafı və yeni istiqamətlərindən xəbərdar olan, bəhrələnən müəlliflərin əsərlərinə “İrşad”da geniş yer verilir. Doğrudur, bu yazıların heç də hər birinin peşəkarlıqla qələmə alındığını, yüksək tələblərə cavab verdiyini, kamil sənət nümunəsi olduğunu söyləyə bilmərik. Lakin müəlliflərin bir çoxunun şəxsiyyətini, parlaq istedadı ilə ictimai-siyasi şüurumuzda, ədəbiyyatımızda müstəsna xidmətlər göstərdiyini xatırlatmaq kifayət edir ki, “İrşad”ın ictimai ədəbi-bədii materialları arasında əsl sənət nümunələrinin üstünlük təşkil etdiyini söyləyək.

**Nəticə / *Conclusion***

“İrşad” qəzetinin meydana çıxması inqilabi şüur, milli-azadlıq ideyaları və milli oyanış prosesinin güclənməsinə təkan vermiş, milli mənlik şüurunun formalaşmasında, millətin özünüdərk, özünütəşkil və özünütəsdiqində əvəzsiz xidmətlər göstərmişdi. Çünki bu mətbu orqanında fəal iştirak edənlərin əksəriyyəti XX əsrin əvvəllərində Azərbaycan ictimai, siyasi, mədəni fikrində böyük işlər görməyi qarşısına məqsəd qoyaraq fəaliyyətə başlamış ziyalılar idi. Onların fədakarlığı sayəsində “İrşad”ın məqsədi, ən müqəddəs vəzifəsi millət yolunda, onun azadlığı uğrunda mübarizə olmuşdu.

Ə.Ağaoğlu başda olmaqla İrşadçılar dövlətçilik, millət, vətən sevgisi, istiqlaliyyət düşüncəsinin ümumxalq düşüncəsi kimi formalaşmasında məhz bədii ədəbiyyatın müstəsna xidmətləri olduğu qənaətində idilər. “İrşad”ın Azərbaycanın hürriyyəti uğrunda əzmkarlığı, müstəqil dövlətçilik, istiqlaliyyət ideyaları dövrünün bədii əsərlərində də əksini tapmışdır.

Araşdırmalarımızdan belə qənaət gəlirik ki, Ə. Ağaoğlunun “İrşad” qəzetində dərc olunmuş böyük fəlsəfi mənaya malik yazıları və məqalələri XX əsr Azərbaycanının milli mübarizə, milli mücadilə, milli özünüdərk əhval-ruhiyyəsinin təbliği və tərənnümü ilə diqqət çəkir.

**İstifadə olunmuş ədəbiyyat / *References***

1. Ağayev İslam. “Azərbaycan şeirində tənqidi-satirik istiqamətin təşəkkülü (1890-1905)”. “XX əsr Azərbaycan ədəbiyyatı məsələləri”, ikinci kitab. Redaktoru: Kamran Məmmədov, Bakı, “Elm” nəşriyyatı, 1985, 204 s.
2. Vəliyev Şamil. XX əsr Azərbaycan ədəbi tənqidində poeziya problemləri (1895-1917). Redaktor və ön sözün müəllifi: Kamal Talıbzadə. Bakı, “Elm” nəşriyyatı, 2004, 187 s.
3. Abdullayeva Təranə. Azərbaycan ədəbi fıkrində qərbçilik meylləri (XX əsrin əvvəlləri). Elmi redaktoru və ön sözün müəllifi: Zaman Əsgərli. Bakı, “Avropa” nəşriyyatı, 2014, 152 s.
4. Ağayev Əhməd bəy. “Qosudarstvenni Duma (ya padşahlıq şura)”. “İrşad” qəzeti, 28 mart 1906, № 79.
5. Vəliyev Şamil. Azərbaycan jurnalistikasının yolgöstərəni. “525-ci qəzet”, dekabr, 2005.
6. Ağayev Əhməd bəy. “Aləmi-islama bir nəzər”. “İrşad” qəzeti, 17 noyabr 1907, №116.
7. Ağayev Əhməd bəy. “İranda reforma, yəni tənzimat”. 4 may 1906, № 104.
8. Ağayev Əhməd bəy. “Tülu edən ay parçası”, “İrşad” qəzeti, 22 mart 1906, 74.

## АХМЕД БЕК АГАОГЛУ, КАК РЕФОРМАТОР МОДЕРНИЗИРОВАННОГО НАЦИОНАЛЬНОГО МЫШЛЕНИЯ В ГАЗЕТЕ "ИРШАД" (1905-1908)

**Ниджат Мамедов**

**Резюме.** В данной статье освещается мировоззрение Ахмед бека Агаоглу. Исследуя прошлое и анализируя переживаемые события, известный как страстный публицист национальных интересов, А. Агаев становится идейным вдохновителем и создателем партии «Дифаи», воззвание которой было опубликовано в газете «Иршад». Ахмед бек никогда не изменял своей главной цели, которая заключалась в стремлении к тому, чтобы тюркские народы поднялись с колен, преодолели отсталость и встали в один ряд с передовыми нациями мира.

**Цель:** исследование различия и сходства идей, пропагандируемых Ахмед беком Агаоглу в его статьях, опубликованных в газете "Иршад" (с точки зрения мировоззрения современной интеллигенции того времени).

**Методология:** системный подход, исторический метод.

**Научная новизна:** исследование представления произведений А.Агаоглы, опубликованных в газете "Иршад", как новых, оригинальных идей, соображений, незаурядного стиля в общественно-политической и философской мысли начала XX века.

**Ключевые слова:** Ахмед бек Агаоглу, общественно-политический, просвещенческо-реалистический, национально-нравственный, демократический, самосознание

# AHMED BEY AGAOGLU AS A REFORMER OF MODERNİZED NATİONAL THİNKİNG İN THE "IRSHAD" NEWSPAPER (1905-1908).

**Nijat Mammadov**

**Abstract.** This article explores the unique worldview of Ahmed bey Agaoglu in the field of revolutionary consciousness, national liberation ideas and strengthening the process of national awakening, established by him in the Irshad newspaper. His invaluable merits in the formation of national self-consciousness, self-organization and self-affirmation of the nation are also investigated.

**Purpose:** Study the differences and similarities of ideas promoted by Ahmed bey Agaoglu in his articles published in the "Irshad" newspaper, from the point of view of the worldview of the modern intelligentsia of that time.

**Methodology:** System approach, historical method.

**Scientific novelty:** The study of the presentation of the works of A. Agaoglu, published in the newspaper "Irshad", as new, original ideas and considerations, in a unique way for the socio-political and philosophical thought of the early twentieth century.

**Keywords:** Ahmed bey Agaoglu, socio-political, enlightenment-realist, national-moral, self-consciousness, democratic.